**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.3.269**

**AMALİYA AĞAYEVA***

# ƏHMƏD BAKIXANOV VƏ BƏHRAM MƏNSUROVUN İFAÇILIQ SƏNƏTİNİN AZƏRBAYCANDA TAR İFAÇILIQ MƏKTƏBİNİN İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

*Təqdim olunmuş məqalədə Azərbaycanda tar ifaçılıq məktəbinin inkişafından bəhs edilir və görkəmli tarzənlərin yaradıcılığı işıqlandırılır. Məqalədə görkəmli tarzənlər Ə.Bakıxanov və B.Mənsurovun ifaçılıq xüsusiyyətləri nəzərə çatdırılır və onların ifaçılıq sənətindəki rolu vurğulanır. Eyni zamanda Ə.Bakıxanov və B.Mənsurovun tar ifaçılıq sənətində gördüyü mühüm nailiyyətləri barədə ətraflı danışılır.*

***Açar sözlər***: *tar aləti, tarzən, ifaçılıq sənəti, Ə.Bakıxanov, B.Mənsurov*

## Giriş

Azərbaycan tar ifaçılıq məktəbi XX əsrdə geniş və hərtərəfli hazırlıq mərhələsinə qədəm qoymuşdur. Xüsusilə, 1931-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tarın aparıcı əhəmiyyət kəsb etməsi onun inkişafında mühüm rol oynamış, alətin texniki xüsusiyyətlərinin və ifaçılıq imkanlarının daha da artmasına təsir göstərmişdir. Əsasən solo və muğam üçlüyünün tərkibində aparıcı alət kimi istifadə edilən tar alətinin muğam sənətinin inkişafında əvəzsiz əhəmiyyəti vardır. Tar alətinin Azərbaycanda geniş istifadəsi eyni zamanda məşhur tarzənlərin da formalaşmasına öz təsirini göstərmişdir. Mirzə Sadıq (Sadıqcan), Mirzə Mənsur Mənsurov, Məmmədxan Bakıxanov, Əhməd Bakıxanov, Bəhram Mənsurov, Həbib Bayramov kimi görkəmli tarzənlər milli tar ifaçılıq sənətinin inkişafında müstəsna rol oynamışdır.

## Əsas təhlil

Tar aləti Azərbaycan dövlətinin hər zaman diqqət mərkəzində olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyətə göstərdiyi yüksək qayğının nəticəsində 2012-ci ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin qorunması üzrə Hökumətlərarası Komitəsinin VII iclasında tar alətinin "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti" adı altında Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilməsi milli musiqinin təbliğündə mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan xalqı uzun əsrlər ərzində dünya xalqlarının musiqi sənətlərindən fərqlənən unikal, zəngin və özünəməxsus ənənəyə malik milli musiqi janrlarını yaratmışdır. Bu rəngarəng və çoxşaxəli xalq yaradıcılığı irsində muğamlar möhtəşəm sənət abidələri kimi xüsusi yer tutur. Şərqdə, digər milli ənənələrdə mövcud olmuş muğam-makam sənətlərindən ifa tərzinə görə seçilən Azərbaycan muğamlarının yüksək ifa mədəniyyətinə malik olmasında muğam ifaçı sənətkarların və ustad müəllimlərin son dərəcə böyük xidmətləri var.

Muğam sənəti çoxəsrli tarixə və zəngin ifaçılıq ənənələrinə malikdir. Şifahi ənənəli professional musiqi sənəti olan muğam Azərbaycan milli musiqisi tarixində aparıcı yerlərdən birinə malikdir. Çoxəsrli təkamül və inkişaf tarixinə malik olan muğam müxtəlif dövrlərdən keçərək zəngin ifaçılıq ənənələri, forma, quruluş, dramaturgiya, obraz, məqam, melodiya, intonasiya, ritm, ifaçılıq xüsusiyyətləri baxımından zənginləşmişdir. *"Muğamat yarandığı ən qədim zamanlardan başlayaraq, əsrlər boyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində yetkinləşmiş, formalaşmış, kamilləşmişdir"* [6, s.115].

Muğam sənətininin inkişaf prosesləri dövrün ifaçılıq məktəbləri və sənətkarları ilə sıx bağlı olmuşdur. Bu professional sənətin yaşaması və nəsillərdən nəsilə keçirilməsi, zəngin ənənələrə malik olması və yeniləşməsi, məktəblərin yaranması və milli sənətkarlıq xüsusiyyətlərini professional, ustad xanəndə və ifaçıların əhəmiyyətli yaradıcılıq fəaliyyəti sayəsində həyata keçmişdir. Görkəmli musiqişünas-alim, sənətşünaslıq doktoru, Xalq artisti, professor R.Zöhrabov professional muğam ifaçılarının rolu barədə belə yazmışdır: *"Şifahi-professional musiqi yazısız ənənələrə əsaslanır. Bu inciləri hələ keçmiş əsrlərdə xalq musiqisi əsasında istedadlı ifaçılar – xanəndə və sazəndələr yaratmışlar. Əsrlər boyu püxtələşmiş muğam-dəstgahlar, zərbi-muğamlar, təsniflər və rənglər xanəndə və sazəndə yaradıcılığının uğurlu məhsullarıdır. Bu sənət əsərləri bir çox xanəndə və sazəndə nəslinin yaradıcılığında şifahi şəkildə nəsildən-nəslə ötürülərək püxtələşmiş və əsrlər boyu inkişaf edərək*

*rəngarəng janrlara malik musiqi irsi kimi formalaşmışdır. Şifahi ənənəyə əsaslanan musiqiyə bəzən bəzən klassik musiqi də deyirlər"* [8, s. 40].

XIX əsrin II yarısından başlayaraq, muğam-ifaçılıq sənəti yeni tarixi inkişaf dövrünə qədəm qoyur. Bu dövrdə muğamların formasında, şöbə və guşə tərkibində, ifa qaydalarında əsaslı dəyişikliklər nəzərə çarpır. Əsrlər boyu davam edən zəngin ifaçılıq ənənələri zəminində yeni muğam məktəbləri formalaşır. Muğam-ifaçılıq məktəbləri əsasən Qarabağ, Bakı-Abşeron, Şamaxı-Şirvan bölgələrini əhatə edir.

Məlumdur ki, Azərbaycan muğam sənətinin, milli ifaçılıq sənətinin formalaşmasında və inkişaf etməsində görkəmli tarzənlərin böyük rolu olmuşdur. Azərbaycanda tar ifaçılıq məktəbi ənənələrinin formalaşmasında görkəmli tarzənlər Əhməd Bakıxanov və Bəhram Mənsurovun böyük rolu olmuşdur. Onların təfsirində Azərbaycan muğamlarının ifaçılıq xüsusiyyətləri daha da zənginləşmiş və yeni ifaçılıq üsulları müəyyənləşmişdir.

Əhmədxan Bakıxanov 1892-ci il sentyabrın 5-də anadan olub. O, ilk təhsilini İranda alıb, burada ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərinə dərindən yiyələnmişdir. 1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə ifaçılıq etməklə yanaşı, müəllimlik fəaliyyəti ilə məşğul olub. 1930-cu illərdən Üzeyir Hacıbəylinin dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra Azərbaycan Dövlət Musiqi Məktəbində (1930-1973) muğamdan dərs demişdir. Azərbaycan radiosunun nəzdində Xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri (1931-1973) olmuşdur. 1973-cü ildən həmin ansambl Əhməd Bakıxanovun adını daşıyır. Bu ansambl bir çox görkəmli xanəndələri – Cabbar Qaryağdıoğlunu, Seyid Şuşinskini, Hüseynqulu Sarabaskini və başqalarını müşayiət etmiş, geniş konsert proqramlarına malik çıxışları ilə yaddaşlarda qalmışdır.

Azərbaycan muğam sənətinin inkişafında və təbliğində Əhməd Bakıxanovun ifaçılıq təcrübəsinin böyük rolu olmuşdur. "Nəva-nişapur", "Əbu-əta" kimi muğamların mahir ifaçısı olmuş Ə.Bakıxanov, eyni zamanda xalq musiqisinin tədrisi və tədqiqində də yaxından iştirak etmişdir.

Əhməd Bakıxanovun muğamların və xalq havalarının işlənməsində, tətbiq və təbliğ olunmasında, bu sahədə mütəxəssislərin yetişdirilməsində müstəsna xidmətləri olmuşdur. O, 60 illik gərgin əməyi sayəsində onlarca muğamın, təsnifin və rənglərin not yazılarını tərtib etmiş, muğamlar və xalq havaları tədrisinin əsas prinsiplərini, yaradıcılıq xüsusiyyətlərini işləmişdir. Bu sahədə ifaçılıq məharətinin, ustalığın şərtlərini açmış, xalq çalğı alətlərinin təkmilləşməsi, xüsusən folklorun toplanması sahəsində məhsuldar fəaliyyət göstərmiş, geniş pedaqoji iş apararaq yüzlərlə ifaçı kadrlar hazırlamış, bir çox musiqi alətləri, əsasən tar sinfinin proqramını təkmilləşdirmişdir. Ə.Bakıxanovun xidmətlərindən biri də onun dinləyicilərin geniş rəğbətini qazanan Azərbaycan xalq çalğı alətləri ansamblını yaratmasıdır. Görkəmli sənətkar uzun müddət dahi bəstəkarımız Üzeyir Hacıbəyli, Hüseynqulu Sarabski, Bülbül, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Qurban Pirimov, Mənsur Mənsurov, Zülfü Adıgözəlov, Həqiqət Rzayeva kimi ifaçı və xanəndələrin istedadlı nümayəndələri ilə birlikdə çalışmış, onları müasiri və həmkarı olmuş, müasir musiqiçilərin tam bir nəslini formalaşdırmışdır.

Hələ gənc yaşlarından ustad muğam ifaçılarından sənətin sirlərini öyrənmiş Əhməd Bakıxanov bu bilik və ifaçılıq ənənəsini daha da təkmilləşdirməyə müvəffəq olmuşdur. Onun Bakı muğam məclislərində ifa edilən muğam dəstgahlarını dərindən bilməsi və ifaçılıq sənətini mənimsəməsi Ə.Bakıxanovun muğam bilicisi kimi şöhrətlənməsində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Ü.Hacıbəyli kimi dahi sənətkar vaxtilə muğamların tədrisini həyata keçirmək üçün muğam dərsi üzrə proqramın tərtib olunmasını Ə.Bakıxanova həvalə etmişdir. Ə.Bakıxanovun muğamları dərindən bilməsi onların sistemləşdirərək düzgün metodik əsaslarla tədris proqramına daxil olunmasına imkan vermişdir. İlk baxışda asan görünən bu iş olduqca çətin və mürəkkəb idi. Çünki XX əsrin əvvəllərində geniş şəkildə, çoxsaylı tərkibdə ifa edilən muğam dəstgahlarında muğamların mahiyyətinə, melo-semantikasına xələl gətirmədən bir çox şöbə və guşələri sistemləşdirib dəstgahın əsas hissəsinə uyğunlaşdırmaq bacarığı tələb edirdi. Ə.Bakıxanovun bu böyük tərtib işi muğamların tədrisinin yüksək səviyyədə qurulmasını təmin etmiş oldu.

İstedadının gücünə arxalanan Ə.Bakıxanov xalq musiqisinin sirlərinə dərindən bələd olmuş, xüsusilə Bayatı Qacar, Çahargah, Zabul, Şur, Rast, Bayatı-Şiraz, Hümayun, Bayatı-Kürd, Mahur, Segah kimi klassik muğamları böyük ustalıqla ifa edərək, özünün fərdi ifaçılıq üslubunu yaratmışdır. Milli xalq musiqisi ruhunda püxtələşən ifaçı onun ən yaxşı ənənələrinə yiyələnən tarzən və görkəmli musiqiçi kimi yetişmişdir. Təxminən 45 il müddətində Ə.Bakıxanov Azərbaycan tar məktəbinin yaradıcılarından biri kimi istedadlı musiqiçilər yetişdirmişdir.

İlk musiqi təhsilini İranın məşhur sənətkarı Əbülhəsən xandan almağa başlayan Əhməd

Bakıxanov qısa müddətdə tar çalmağı öyrənmiş və özünü çox qabiliyyətli bir ifaçı kimi göstərmişdir.

Ə.Bakıxanov muğam ifaçılıq sənətində ifaçı-pedaqoq-ansambl rəhbəri kimi də məşhur idi. Muğam ifaçısı kimi onun sənətində bir çox cəhətləri xüsusi olaraq qeyd etmək lazımdır. Belə ki, muğamın ifa yollarına dərindən bələd olması onun ifasını son dərəcə sanballı, məzmunlu edirdi. O, ifaçı kimi muğamların xüsusiyyətlərini zəngin musiqi ifadə vasitələrinin köməyi ilə dinləyiciyə çatdıra bilirdi. Tarzən hər bir musiqi fikrini öz ifasında xüsusi olaraq, qabarıq şəkildə vurğulayırdı və onları ardıcıl şəkildə qurmağı bacarırdı. Buna görə də onun ifası son dərəcə anlaşıqlı və məzmunlu idi.

Ə.Bakıxanovun güclü mizrabları, ənənəvi ifa tərzinə məxsus texnikası var idi. Belə ifa tərzi musiqi obrazlarının parlaqlığını və rəngarəngliyini təmin edirdi. Ona görə də tarzənin bütün ifaları yaddaqalan olub, sanballığı ilə seçilirdi.

Ə.Bakıxanov pedaqoq kimi Azərbaycanın mədəni həyatı üçün yüksək ixtisaslı ifaçı kadrlarını hazırlamaqla muğamların uzunmüddətli inkişafının düzgün istiqamətinə zəmin yaratmışdır. Görkəmli tarzənin yetirmələri bu gün muğam sənətinin ən məşhur ifaçılarıdır.

Ə.Bakıxanovun yaratdığı və uzun illər rəhbəri olduğu xalq çalğı alətləri ansamblının ifasında yazılmış lent yazıları bu gün qızıl fondda saxlanılır. O, 1972-73-cü illərdə həmin ansamblın ifaçısı da olmuşdur. Ə.Bakıxanov ansamblda çalışarkən hər bir musiqi nömrəsini xüsusi olaraq seçər və onun üzərində lazım gələrsə, saatlarla məşq edərdi. O, kollektivin püxtələşməsi üçün əvvəllər fəaliyyət göstərmiş ansamblların ən yaxşı ifaçılıq ənənələrini öyrənərək tətbiq etmişdir. Bu ansambl onlarca musiqiçi, müğənni üçün sənət məktəbi olmuşdur. Ə.Bakıxanovun muğam dəramədlərini rəvan bir tərzdə tərtib edib işləməsini xüsusi olaraq qeyd etmək lazımdır. Ansamblın ifa etdiyi "Rast", "Bayatı-Şiraz", "Mahur" dəramədləri əsl sənətkar ifaçılığının parlaq nümunələridir. Repertuarında Azərbaycan xalq musiqisinin bütün janrlarını qavrayan ansambl xanəndələrin klassik üsluba düzgün riayət etməsinə və təkmilləşməsinə böyük diqqətlə yanaşmışdır. İlk vaxtlarda ansamblın muğam, təsnif və el mahnılarından ibarət repertuarını sonralar bəstəkarların müxtəlif mövzularda yazdığı mahnıları zənginləşdirməyə başladı. Çalğının rəngarəngliyinə nail olmaq üçün o, ansambla yeni-yeni milli musiqi alətləri daxil etmişdir.

Musiqi sənətimizin inkişafında Ə.Bakıxanovun xidmətləri əvəzsizdir. Onun yaradıcılıq fəaliyyəti yalnız pedaqoji işi ilə, tarzənlik fəaliyyəti ilə məhdudlaşmamışdı. Ə.Bakıxanov həm də gözəl musiqi tədqiqatçısı və nəzəriyyəçi idi. Muğam rənglərinin toplanmasında xeyli xidmətləri olmuşdur. Sənətkarın topladığı xalq musiqi nümunələri ayrı-ayrı vaxtlarda nəşr edilmiş "Azərbaycan xalq rəngləri", "Azərbaycan ritmik muğamları", "Muğam, mahnı, rəng" adlı məcmuələrə daxil edilmişdir. Belə ki, 1964-cü ildə Ə.Bakıxanovun "Azərbaycan xalq rəngləri" kitabı çap olunmuşdur. 1968-ci ildə çıxan "Azərbaycan ritmik muğamları" kitabı da musiqimizə dəyərli hədiyyədir. Musiqi məktəbləri üçün bir sıra proqram, vəsait və dərsliklər onun qələminin məhsuludur.

İfaçılıq və musiqi kadrları hazırlanmasındakı xidmətlərinə görə Ə.Bakıxanov 1941-ci ildə Əməkdar müəllim, 1966-cı ildə isə Əməkdar incəsənət xadimi, anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq Xalq artisti fəxri adı ilə təltif olunmuşdur.

Görkəmli tarzənin musiqi məktəbləri üçün tərtib etdiyi muğam proqramı tar tədrisində bu gün də istifadə olunur. Əhməd Bakıxanovun ifası əsasında bəstəkar N.Məmmədov bir çox instrumental muğamları - "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Hümayun", "Şahnaz" muğamları nota salmış və bunlar müxtəlif illərdə nəşr edilmişdir.

Ə.Bakıxanovun oğlu, bəstəkar, Xalq artisti Tofiq Bakıxanov onun ifaçılıq üslubundan bəhrələnərək, "Dügah", "Nəva", "Şahnaz", "Hümayun", "Rahab" simfonik muğamlarını bəstələyib. Ə.Bakıxanovun mənzilində Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin filialı yaradılıb, burada tarzənin sərgisi nümayiş olunur. 1994-cü ildə Əhməd Bakıxanovun 100 illiyinə həsr olunmuş tələbə və gənclərin tar alətində muğam ifaçılığı üzrə respublika müsabiqəsi keçirilib.

Milli tar ifaçılıq məktəbinin inkişafında görkəmli tarzən Bəhram Mənsurovun yaradıcılıq fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. "Rast", "Çahargah", "Bayatı-Şiraz", "Qatar" kimi muğamların mahir ifaçısı olan B.Mənsurov muğam sənətinin tədrisi ilə məşğul olmuş və özünün orijinal tədris metodunu yaratmışdır. Bu baxımdan Azərbaycanda tar ifaçılıq sənətinin inkişafında və muğamların tədrisində B.Mənsurovun yaradıcılıq fəaliyyətinin böyük rolu olmuşdur.

Bəhram Mənsurov 1911-ci il fevralın 12-də Bakıda – İçərişəhərdə musiqiçi ailəsində anadan olmuşdur. Qədim İçərişəhərdə yaşayan Mənsurovların evi sanki bir muğam ocağı idi. Bu evdə Bəhram Mansurovun musiqişünas babası Məşədi Məlik bəyin təşkilatçılığı ilə musiqi gecələri təşkil olunur və

Azərbaycanın müxtəlif yerlərindən muğam biliciləri, xanəndələr, musiqiçilər bu məclisə toplaşırdılar. Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev kimi şəxsiyyətlər də bu məclislərin qonağı olmuşlar. B.Mənsurovun babası Məşədi Məlik muğam ustası və milli musiqinin ilk təbliğatçılarından biri olmuşdur. O, Azərbaycanın musiqi mədəniyyəti tarixində Bakı və Abşeronda klassik muğam məclislərinin qurucusu kimi tanınır. Bəhram Mənsurovun əmisi Mirzə Mənsur isə uzun müddət konservatoriyada çalışmışdır. Bəhram Mənsurovun atası Məşədi Süleyman bəy tarda ifa edir və muğamın bütün incəliklərini bilirdi.

Bəhram Mənsurov ilk təhsilini mədrəsədə, sonra isə rus-tatar məktəbində almışdır. 1921-ci ildə 10 yaşlı Bəhram Mənsurov böyük qardaşı Ağa Məliklə 10№-li birinci dərəcəli məktəbə qəbul olunurlar. Bəhram Mənsurov 1927-ci ildə Mehdi bəy Hacınskinin direktoru olduğu 33 №-li məktəbdə təhsilini davam etdirir. Bəhram Mənsurov 19 yaşında ilk notlu xalq çalğı alətləri orkestrinə, sonradan Opera və Balet Teatrına solist-tarzən kimi dəvət edilir. Bəhram Mənsurov opera teatrında Hüseynqulu Sarabski, Yavər Kələntərli, Hüseynağa Hacıbabayov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva kimi müğənni-xanəndələrlə birgə işləyir. 1978-1983-cü illərdə B.Mənsurovun ifasında bütün Azərbaycan muğamları YUNESKO xətti ilə valla və CD-lərə yazılaraq bütün dünyaya yayılmışdır. Dünya Beynəlxalq Muğam Simpoziumlarında Azərbaycanı məhz Bəhram Mənsurov təmsil etmişdir. O,1978-ci ildə Xalq artisti kimi fəxri ada layiq görülmüşdür.

Muğam sənətinin nüfuzlu bilicisi kimi, Bəhram Mənsurov radioda "Muğam" və televiziyada "Məktəblilərin musiqi klubu" verilişlərinin məsləhətçisi idi. Bir çox özfəaliyyət müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur. O, dəfələrlə müxtəlif auditoriya qarşısında muğamlar haqqında çıxışlar etmiş, dövri mətbuatda mütəmadi olaraq muğamın tarixi barədə fikir və düşüncələrini bildirmişdir.

Bəhram Mənsurov tarda yalnız sol əllə, mizrab vurmadan çalmışdır və bu üsula "mizrabi — dəstkəri" deyilir. Azərbaycanda bu üsuldan əvvəllər yalnız Sadıqcan, Məşədi Süleyman və Mirzə Mənsur kimi musiqiçilər istifadə etmişdir. Öz dövrünün ifaçıları arasında "mizrabi-dəstkəri"dən istifadə edən yeganə tarzən Bəhram Mənsurov olmuşdur.

**Nəticə**

Beləliklə, Azərbaycanda tar ifaçılığı sənətinin formalaşmasında görkəmli tarzənlər Ə.Bakıxanovun və B.Mənsurovun əvəzsiz rolu olmuş və onlar milli ifaçılıq sənətinin inkişafında mühüm əhəmiyyətə malik olmuşlar. Eyni zamanda onların ifaları həm də milli ənənələrin qorunub saxlanılması istiqamətində və gələcək nəsillərə ötürülməsində dəyərli zəngin irs kimi qiymətlidir.

## ƏDƏBİYYAT


1. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (tarixi-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2002. – 454 s.
2. Əbdülqasımov, V.Ə. Azərbaycan tarı / V.Ə.Əbdülqasımov. – Bakı: İşıq, – 1989. – 101 s.
3. Əsədullayev, A.M. İnstrumental muğamlar və onların ifaçılıq məziyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2007. – 21 s.
4. Əyyubova, M.M. Muğamların tədrisində ifaçılıq ənənələrinə dair / M.M.Əyyubova. – Bakı: Şivannəşr, – 2004. – 56 s.
5. Mansurov, M.S. Xatirələr / M.S.Mansurov. – Bakı: Adiloğlu, – 2005. – 139 s.
6. Muğam ensiklopediyası. – Bakı: Şərq-Qərb, – 2008. – 215 s.


***Azərbaycan Milli Konservatoriyasının magistri**
**Elmi rəhbər: Fəttah Xalıqzadə**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**professor***

**Amaliya Agayeva**

## THE SIGNIFICANCE OF THE PERFORMING ARTS OF A.BAKIKHANOV AND B.MANSUROV IN THE DEVELOPMENT OF THE PERFORMING SCHOOL OF THE TAR INSTRUMENT IN AZERBAIJAN

The presented article talks about the development of the tarzen school in Azerbaijan and highlights the creativity of outstanding tarzens. The article examines the performing characteristics of outstanding tarzens A.Bakikhanov and B.Mansurov, emphasizing their role in the performing arts. At the same time, the important achievements of A.Bakikhanov and B.Mansurov in the art of tar performance are discussed in detail.

**Keywords:** *tar instrument, tarzen, performing art, A. Bakikhanov, B. Mansurov*

**Амалия Агаева**

## ЗНАЧЕНИЕ ИСПОЛНИТЕЛЬСКОГО ИСКУССТВА А.БАКИХАНОВА И Б.МАНСУРОВА В РАЗВИТИИ ИСПОЛНИТЕЛЬСКОЙ ШКОЛЫ ИНСТРУМЕНТА ТАР В АЗЕРБАЙДЖАНЕ

В представленной статье говорится о развитии школы тарзена в Азербайджане и освещается творчество выдающихся тарзенов. В статье рассматриваются исполнительские характеристики выдающихся тарзенов А.Бакиханова и Б.Мансурова, подчеркивается их роль в исполнительском искусстве. При этом подробно обсуждаются важные достижения А.Бакиханова и Б.Мансурова в искусстве тарного исполнительства.

**Ключевые слова:** *инструмент тар, тарзен, исполнительское искусство, А.Бакиханов, Б.Мансуров*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.09.2024**
**Son daxilolma tarixi:28.10.2024**